Müasiri olduğumuz hazırkı şəraitdə – müstəqilliyin keçid dövründə dinin cəmiyyətin fəal həyat tərzinə, milli ideologiyanın aparıcı dayaqlarından birinə çevrilməsi, nəhayət, mədəniyyətin mənəvi əsasını təşkil etməsi bədii yaradıcılıq sahəsinə indiyəcən görünməmiş geniş imkanlar açmışdır. Bu faktın özü islam intibahı üçün ən əlverişli bir məqamdır. Bədii mədəniyyətin mərkəzi elementi olan incəsənətdə islam dinamikliyi milli mədəniyyətin mənəvi əsasdan qidalandığını sübut edən başlıca amildir.

Yeni tarixi şəraitdə islamın həm dünyada, həm də Azərbaycan cəmiyyətində nüfuzunun gücləndirilməsi, bu ideologiyanın ən ali prinsiplərinin dövrün tələblərinə uyğun təbliğində sənət sahələrinə çox böyük ehtiyacı vardır. İslam faktorunun yenidən incəsənətə qayıdışı bir sıra əlamətləri ilə səciyyəvidir. Əvvəla, incəsənətin bütün sahələri – ədəbiyyat, təsviri sənət, teatr, kino, musiqi mənəvi həyatsız, müqəddəs hisslərdən kənar, ağlasığmazdır. Sənətdə dini impulsun zəifləməsi böhran və tənəzzüllə nəticələnir ki, bu da bədii mədəniyyətin başlıca fəaliyyət forması olan bədii yaradıcılığı dekradasiyaya aparıb çıxarır. Ötən tarixi çağlarda (sovet quruluşunda) bu reallıq idi. Digər tərəfdən, yeni tarixi şəraitdə islamın bədii inikasının obyektinə çevrilməsi faktı həm bu dini ideologiya ilə yaxından tanışlıq, həm də müasir azərbaycanlı türkünün mənəviyyat prinsiplərinin formalaşmasında milli ideologiya təbliğatçısı öhdəçiliyini reallaşdırması baxımından ictimai-sosial, mədəni əhəmiyyət kəsb edir. Müasir şəraitdə incəsənətin tərbiyələndirici, ideoloji funksiyaları, həm də islamın mahiyyətinin idrakı, insan, cəmiyyət, həyat, təbiət haqqında dini təsəvvürlərin bədii inikası vasitəsilə dərk edilməsi, habelə mövcud qlobal problemlərin islam humanizmi mövqeyindən təbliğinə yönəldilmişdir. Bu baxımdan ədəbiyyat ən aparıcı sənət sahəsi hesab edilir.



# Müasir Azərbaycan ədəbiyyatında dini tematika

İncəsənətin ən aparıcı və daha kütləvi növü olan ədəbiyyat, bəşər tarixinin bütün mərhələlərində baş verənləri bədii sözün qüdrəti vasitəsilə ifadə etmək gücünə malik olmuşdur. Ədəbiyyat sənətinin qayəsini təşkil edən sözdən istifadə edən sənətkarlar onu ilahi məqamla birləşdirərək ən çətin vaxtlarda insanlara məlhəm kimi vacib olan inam, iradə, təmkin təlqin etmişlər. Vaxtında və yerində deyilmiş ilahi bədii söz bəşər övladını baş verənlərdən obrazlı şəkildə xəbərdar etmiş, ruhuna qida və təsəlli olmuşdur.

Məhz söz sənətinin bu məqamına diqqət yetirən tənqidçi N.Cəfərov fikirlərinin birində qeyd etmişdi: “...böyük ədəbiyyatın əsasında, haçan yaranmasından asılı olmayaraq “ilahi” bir simmetriya durur...”. (Cəfərov N. – “Yatmışdım, üstümə gəldi ərənlər”, – “Ədəbiyyat və incəsənət” 3 noyabr 1988.) Vatikan dövlətinin başçısı, Roma papası II İohann Pavel Bakı görüşündəki nitqində demişdir: “...insanı yaşadan təkcə çörək deyil, həm də ilahi dərgahdan gələn sözdür. ...ədəbiyyat, mədəniyyət və incəsənət xadimləri həmin ilahi sözün insanlara çatdırılmasını təmin edirlər, onların əxlaqını gözəlləşdirir, mənəvi cəhətdən saflaşmalarına, təmizlənmələrinə yardım göstərirlər”. (“Ədəbiyyat” qəzeti, 24 may 2002.)

Uzun illər bu bədii ilahi sözdən uzaq düşmüş, Azərbaycan ədəbiyyatına onun qayıdışı zamanı tələbindən doğan bir mənəvi ehtiyaca çevrildi. Dünya, həyat, cəmiyyət reallıqlarını bədii sözün qüdrəti ilə ifadə etməklə insanları ayıq-sayıqlığa, dözüm və təmkinə səsləyən Azərbaycan ədəbiyyatında əvvəlki illərdən köklü şəkildə fərqlənən yeni bir təfəkkür formalaşmağa başladı. Yeni təfəkkürün başlıca meyarı ədəbi prosesdə tematika məsələsi idi. 1995-ci ilin yayında Respublika Yazıçılar Birliyinin təşəbbüsü ilə keçirilən “Yeni təfəkkür



və nəzəri estetik irsimiz” mövzusunda yaradıcılıq müzakirəsində tənqidçi N.Cəfərovun “Yeni təfəkkür ədəbi tənqiddə” adlı məruzəsində müasir ədəbi tematik dini mövzuların yer alması və onlara qayıdış müasir tarixi şəraitin hər şeydən əvvəl, sərt zamanın nəbzi ilə əlaqələndirilirdi. Digər tərəfdən isə, Azərbaycan cəmiyyətinin bəşəri demokratik prinsiplərlə yenidən qurulması milli incəsənətin aparıcı qolunu təşkil edən ədəbiyyatda dini ideoloji ünsürlərin qayıdışı üçün əlverişli məqam oldu. Bu qayıdış dinlə ədəbiyyatın qovuşuğundan çox birincisindən məqsədəuyğun şəkildə istifadə mahiyyəti kəsb edirdi. Ədəbiyyatda dini təfəkkürün mərkəzində məhz inamın möhkəmləndirilməsi ideyasının qabardılmasını dəstəkləyən sənətkarlarımız XX əsrin sonunda dünyada, ölkədə baş verən ictimai-siyasi hadisələrlə bağlı qlobal bəlalarla, insan itkiləri ilə əlaqələndirirdilər. Azərbaycan ədəbi nəsr və poeziyasında bundan irəli gələrək artıq 1988-ci ildən üzü bu yana dini təfəkkür zəminində xeyir-şər, mələk-iblis, həyat-ölüm, var-dünya-axirət qarşıdurması ən başlıca motivlərdən birini təşkil etdi. Uzun illərdən sonra Azərbaycan ədəbiyyatında təzəcə meydana çıxan dini motivlər ədəbi janrda “ştamp ədəbiyyatına” son qoyaraq mifikləşmə, folklora qayıdış üçün də əlverişli şərait yaratdı. Yazıçı İmamverdi İsmayılovun nağıl-povest janrında qələmə aldığı “Əzrayıl” əsəri (1989-cu il) ifrat konkretləşdirmənin nümunəsi olan kolxoz, zavod, miqyaslı hadisələri əhatə edən “ştamp”lı əsərlərdən sonra ədəbi prosesdə əbədi bəşəri mövzu olan xeyir və şərin mübarizəsini mifik obrazlarla, dini rəmzlərlə obrazlaşdıran nəsr nümunəsidir (İ.İsmayılov – “Əzrayıl” povesti – “Dayaq nöqtəsi” (povest və hekayələr), B., Yazıçı, 1989, s.3-55). Əsərdə xeyir-şər kimi əbədi bir problem müasir çalarla diqqət mərkəzində durur. Nağıl-povest hadisələri vaxtı, zamanı, məkan və dövrü milli xüsusiyyətləri konkretləşdirilməyən, hətta qəhrəmanların adları belə çəkilməyə şəraitdə cərəyan edir. Bununla

belə povestin müasirliklə və millilikllə əlaqəsi güclüdür. Şərin dini məziyyəti buradakı mifik ölüm mələyi kimi Əzrayıl obrazının təcəssümü, axirət dünyasının təsviri və s. məqamlar izah olunur. Minilliklər ərzində xeyir və şər arasında seçim kimi mənəvi problemin həllində insanın özü deyil ilahi varlıqların – Allah, mələk, şeytan və s. həlli dini mahiyyət kəsb edən üsuldan istifadə olunub. Yazıçı bu əsərdə də həmən priyomdan bəhrələnmişdir. Əzrayıl ölülər və dirilər dünyasını gəzərək heyrətə düşür. Onun heyrətinin səbəbi insanların azğınlığı, harınlığı, sərvət ehtirasından törətdikləri qəddarlıq və cinayətkarlığıdır. Bütün bunlar onun özünü belə qorxuya salır. Əsərdəki bir sıra məqamlar qoyulan mövzunun həm real, həm də bədii bitkinliyinə görə tamlıq təşkil edir. Bunun üçün müəllif çox inandırıcı ştrix və detallardan istifadə etmişdi. Qəbiristanlıq, bulaq başındakı səhnələr, tamahkar qazı ilə bağlı epizodlar öz reallığına görə maraq doğurur. İnsanların qəddarlığı önündə ölüm mələyi Əzrayıl özünü daha humanist hiss edir və öz işindən heç də utanmır. Bununla müəllif əsərdə “İnsanların özləri bir-birinin əzrayılıdırlar!” ideyasını deklarativ bir formada bəyan edir. Nağıl-povestin maraqlı məqamlarından biri insanların bu qəddarlığından utanan Əzrayılın özünü yoxluğa çevrilmək, ölmək istəyirdi. Müəllif bəla, insan qəddarlığı ilə bol olan Dünyanın davamını xoş sonluqla bitirir: Əzrayılla uşağın görüş səhnəsi – ölüm ilə həyatın qarşılığı çox maraqlı tapıntı kimi qələmə alınır. Uşağın timsalında gələcəyin nurlu, işıqlı olması təsəllisi tərənnüm olunur.

XX əsrin qurtardığı bir dövrdə dini tematikaya müraciət zamanın zərurətindən, obyektiv ictimai-siyasi həyatın tələbindən doğan bir hadisə idi. Bir tərəfdən islamın əsil mahiyyətinə qayıdış, digər tərəfdən isə Azərbaycan reallıqlarındakı ziddiyyətli hadisələr Allaha inam, ondan kömək, imdad ədəbi mühitdə qabarıq rol oynadı.

**Sədaqət Əliyeva**